# YAP Azərbaycan həqiqətlərinin yayılmasında fəal iştirak edir

**Noyabrın 17-19-da Koreya Respublikasının paytaxtı Seulda Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) Media Forumunun 6-cı iclası keçirilib.**



16 ölkədən 18 siyasi partiyanın 40-a yaxın nümayəndəsinin və 21 jurnalistin iştirak etdiyi tədbirdə ölkəmizi Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Şahin İsmayılov, YAP Gənclər Birliyinin üzvü, CBC TV-nin aparıcısı Anastasiya Lavrina və YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin aparıcı məsləhətçisi, Yeni TV-nin aparıcısı Nurlana Mehdiyeva təmsil ediblər.

İclasda ICAPP-ın baş katibi Kvon He-seoq, ICAPP Daimi Komitəsinin sədri, Koreya Respublikasının keçmiş xarici işlər naziri Çunq Eu-yonq, ICAPP Media Forumunun həmsədri, Koreya Milli Assambleyasının üzvü, ICAPP Parlamentarilər İttifaqının sədr müavini Kanq Hun-sik, ICAPP Daimi Komitəsinin həmsədri, Pakistan Senatının Müdafiə Komitəsinin sədri Müşahid Hüseyn Sayed çıxış ediblər.

Sonra ICAPP Media Forumunun Bürosunun yeni tərkibi müəyyənləşib. YAP İdarə Heyətinin üzvü Şahin İsmayılov da yeni tərkibdə yer alıb.

"Asiya cəmiyyətinin qurulmasında və siyasi demokratikləşmədə medianın rolu" mövzusunda keçirilən plenar sessiyada çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Şahin İsmayılov media və siyasi partiyalar arasında əlaqələrin əhəmiyyətindən danışıb. O, demokratik cəmiyyətdə media və siyasi partiyalar arasında sağlam münasibətin qurulmasında media azadlığı, məsuliyyətli jurnalistika və qərəzsiz mövqe arasında tarazlığın vacibliyini önə çəkib.

Yeni Azərbaycan Partiyasının da mətbuat orqanları ilə sıx əməkdaşlıq etdiyini deyən Şahin İsmayılov partiyanın internet televiziyası və qəzetinin fəaliyyət göstərdiyini qeyd edib. O da vurğulanıb ki, siyasi plüralizmə böyük önəm verən Yeni Azərbaycan Partiyası digər partiyaların da mövqelərinin öz mətbu orqanlarında işıqlandırılmasına şərait yaradır.

YAP Gənclər Birliyinin üzvü, CBC TV-nin aparıcısı Anastasiya Lavrina isə ictimai şüurun formalaşmasında, habelə beynəlxalq münasibətlərdə və ölkələr arasında əlaqələrin inkişafında medianın rolundan bəhs edib. A.Lavrina diqqəti Azərbaycanla Ermənistan arasında 30 ilə yaxın davam edən münaqişəyə, Azərbaycanın öz gücü ilə torpaqlarını işğaldan azad etməsinə və Cənubi Qafqazda yaranan yeni reallıqlara yönəldib. Anastasiya Lavrina həm işğal, həm də postmüharibə dövründə sülhün bərqərar olmasında maraqlı olmayan qüvvələr tərəfindən Azərbaycana qarşı aparılan dezinformasiya siyasətinin regional təhlükəsizlik və sabitliyə mənfi təsir göstərdiyini qeyd edib. Bu kontekstdə dezinformasiya ilə mübarizədə jurnalistikanın dəstəklənməsi və təkmilləşdirilməsinin prioritet məsələlərdən olduğunu deyib.

İclasın sonunda ICAPP Media Forumunun yenilənmiş fəaliyyət qaydaları və müzakirələrin əsas nəticələrini özündə əks etdirən Seul Bəyanatı qəbul olunub.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.-21 noyabr, № 253.- S.6.